**Xalq qəzeti.**-2019.-3 may.-№96.-S.7.

**Multikultural dəyərlərə daha bir layiqli töhfə**

**Rüstəm Xəlilov**.
Milli Məclisin deputatı

Əsrlər boyu Azərbaycanda müxtəlif xalqların nümayəndələri birgə fəaliyyət göstərmiş, bütün etnik qrup və dinlərin təmsilçiləri, mehriban, sülh və harmoniya şəraitində yaşamışlar və bu gün də yaşayırlar. Məhz buna görə də respublikamız çoxmillətli, çoxkonfessiyalı ölkə kimi tanınır. Xalqımızın qədim tarixi, adət–ənənələri, milli–mənəvi dəyərləri, yerləşdiyi coğrafi mühit də Azərbaycanın sivilizasiyaların qovuşduğu bir məkana çevrilməsində böyük rol oynayıb.

Azərbaycan daha bir mötəbər tədbirə – Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın da iştirak etdiyi "Ayrı-seçkilik, qeyri-bərabərlik və zorakı münaqişəyə qarşı fəaliyyət naminə dialoq quraq" şüarı altında keçirilən V Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumuna evsahibliyi edir. Bu tədbir Azərbaycan hökumətinin təşkilatçılığı, UNESCO, BMT-nin Sivilizasiyalar Alyansı, Dünya Turizm Təşkilatı, Avropa Şurası və ISESCO-nun tərəfdaşlığı ilə keçirilir. 100-dən çox ölkənin və 30-dan çox beynəlxalq təşkilatın yüksək səviyyəli rəsmilərinin iştirakı forumun böyük əhəmiyyət kəsb etməsindən xəbər verir.

Bu qəbildən olan tədbirlər müxtəlif qitələrdə yaşayan fərqli etnik, mədəni, dini və linqvistik mənsubiyyəti olan ayrı-ayrı insanlar və qruplar arasında qarşılıqlı anlayış və hörmət çərçivəsində səmimiyyət və hörmətə əsaslanan fikir mübadiləsi üçün pozitiv platforma yarada bilib. Belə tədbirlərin ən böyük əhəmiyyətindən biri də tədbir iştirakçılarının ölkəmizin inkişafı ilə yaxından tanış olmaları, Azərbaycanı sabitlik adası kimi tanımalarıdır. Bundan başqa, forum çərçivəsində mədəniyyətlərarası dialoq və insan ləyaqətini təbliğ etməklə inklüziv və davamlı cəmiyyətlərin qurulmasında dövlət, özəl və üçüncü sektoru təmsil edən təşkilatlar üçün ümumi yol xəritəsini hazırlamaq məqsədilə keçiriləcək görüşlər də mühüm əhəmiyyət kəsb edir.

Belə mötəbər tədbirləri keçirməyə, şübhəsiz, hər ölkə qadir deyil. İlk növbədə, həmin ölkə iqtisadi qüdrətə və ictimai-siyasi sabitliyə malik olmalıdır. Artıq ölkəmiz dünyada "sabitlik adası" kimi tanınır və belə mötəbər tədbirləri yüksək səviyyədə keçirməyə qadir olduğunu dəfələrlə təsdiqləyib. Azərbaycan bu gün dünyada beynəlxalq dialoq və əməkdaşlıq məkanı kimi tanınır. Azərbaycanın mədəniyyətlər və sivilizasiyalararası dialoqa, multikultural dəyərlərin qorunmasına verdiyi töhfələr xüsusilə diqqətəlayiqdir.